

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 85 (21.237)

2 may 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Beynəlxalq Valyuta Fondunun icraçı direktorunun müavini Mitsuhiro Furusavanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı, tədbirə hazırlığın yüksək səviyyədə təşkil edildiyi bildirildi. Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirilməsi üçün əlverişli məkan və bu istiqamətdə yaxşı təcrübəyə malik olduğu məmnunluqla qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzunmüddətli uğurlu əməkdaşlığın önəmi vurğulandı və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Macarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jolt Çutoranı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

## Kəngərli Rayon Təhsil Şöbəsinin yeni binası istifadəyə verilmişdir





Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın gələcək inkişafında təhsilin rolunu xüsusi qiymətləndirmiş, gənc nəslin təhsillənməsini daim diqqət mərkəzində saxlamışdır. Ötən əsrin 70-ci illərində ulu öndər tərəfindən əsası qoyulan təhsil strategiyası bu gün də ölkəmizdə uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi ***"Maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi"*** prinsipi əsasında inkişaf etdirilən təhsil sistemi yeni mərhələyə yüksəldilmiş, ölkəmizdə, eləcə də muxtar respublikada güclü tədris bazası yaradılmışdır. Müasir təhsil sisteminin yaradılması istiqamətində görülən işlər Kəngərli rayonunu da əhatə etmişdir.

Mayın 1-də Kəngərli Rayon Təhsil Şöbəsinin yeni inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Ali Məclisin Sədri Kəngərli Rayon Təhsil Şöbəsinin yeni inzibati binasının istifadəyə verilməsi münasibətilə kollektivi və tədbir iştirakçılarını təbrik edərək demişdir: "Bu gün ölkəmizdə təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Hər il onlarla yeni məktəb binası tikilərək istifadəyə verilir. Yeni yaradılmasına baxmayaraq, Kəngərli rayonunda da bu istiqamətdə işlər uğurla həyata keçirilir. Kəngərli Rayon Təhsil Şöbəsinin tabeliyində 12 ümumtəhsil məktəbi və 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərindən 11-i müasir binada yerləşir. Bir məktəb binasında isə yenidənqurma işləri davam etdirilir. Hazırda rayondakı ümumtəhsil məktəblərində 3084 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 357 müəllim məşğul olur. Təhsil Şöbəsinin yeni inzibati binasında yaradılan şərait rayonda təhsilin günün tələbləri səviyyəsində qurulmasına imkan verəcəkdir. Ona görə də Təhsil Şöbəsinin əməkdaşları məktəblərin fəaliyyətinə gündəlik nəzarəti gücləndirməli, tədrisin müasir tələblər səviyyəsində qurulması üçün səylərini artırmalıdırlar".

Ali Məclisin Sədri demişdir: "2013-2014-cü tədris ilində Kəngərli rayonunda orta məktəbləri bitirən 333 məzundan 102-si ali məktəblərə, 17-si orta təhsil bazasından, 8-i IX sinif bazasından orta ixtisas məktəblərinə, 26-sı isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Məzunlardan 14-ü 500-700 intervalında bal toplamışdır. Bundan başqa, rayonun ümumtəhsil məktəblərindən 2-si ötən tədris illərində "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qalibi olmuşdur. Təhsil sahəsində çalışanlar üçün yaxşı iş şəraitinin yaradılması gələcəkdə bu nailiyyətlərin daha da artırılmasına imkan verəcəkdir".

Ali Məclisin Sədri rayonun ümumtəhsil məktəblərində tədrisin müəllim tələbkarlığı və şagird çalışqanlığı əsasında qurulacağına, təhsil sahəsində nailiyyətlərin artırılaraq muxtar respublikanın orta göstəricisinə çatdırılacağına əminliyini bildirmiş, qarşıda duran vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 4 mərtəbəli binada müasir iş otaqları və geniş iclas zalı vardır. Otaqların hər biri mebel dəstləri və avadanlıqlarla təmin olunmuşdur. Həmçinin binada qazanxana, anbar, bufet, arxiv və digər yardımçı otaqlar da yerləşir.

Binaya fiber-optik xətt çəkilmiş, kompüterlər internetə qoşulmuş və xüsusi proqramla təmin edilmişdir. Bu da rayonda təhsil məlumat bazasının yaradılmasına və elektron idarəetmə sisteminin tətbiqinə imkan verəcəkdir.

Həyətdə də abadlıq işləri görülmüş, müasir işıqlandırma sistemləri quraşdırılmışdır.

## Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbi üçün müasir bina tikilmişdir



Mayın 1-də Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbinin yeni binasının açılışı olmuşdur.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbinin yeni binasının istifadəyə verilməsi ilə muxtar respublikanın rayonlarında fəaliyyət göstərən bütün şahmat məktəblərinin müasir binalarla təmin olunduğunu bildirərək demişdir: "Ölkəmizdə şahmatın inkişafına ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində başlanılmışdır. Ötən əsrin 70-ci illərində ulu öndərin rəhbərliyi ilə Azərbaycanın bütün bölgələrində şahmat məktəbləri yaradılmış, şahmat fənni tədrisə əlavə edilmişdir. Təəssüf ki, ötən əsrin 90-cı illərinin məlum hadisələri bütün sahələrdə olduğu kimi, şahmat məktəblərinin fəaliyyətinə və şahmatın tədrisinə də böyük zərbələr vurmuşdur. Lakin bu gün Azərbaycanda ulu öndərin siyasi xətti uğurla davam etdirilir, digər sahələrlə yanaşı, şahmatın tədrisi və inkişafı istiqamətində də ardıcıl tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 5 may tarixli Sərəncamı ilə təsdiq edilən "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın uğurla icrası ölkəmizdə şahmatın inkişafına mühüm töhfə vermişdir".

Ali Məclisin Sədri demişdir: "Şahmatın tədrisi vacib məsələdir. Ona görə ki, şahmat gənclərin əqli inkişafı ilə yanaşı, həm də onların asudə vaxtlarının səmərəli təşkilinə imkan verir. Muxtar respublikada şahmat fənni ümumtəhsil məktəblərinin tədris proqramına daxil edilmişdir. Hazırda şahmat məktəbləri ilə bərabər, ümumtəhsil məktəblərində də həftədə 2 saat olmaqla şahmat fənni tədris olunur. Bu gün Kəngərli rayonunun ümumtəhsil məktəblərində təhsil alan 3084 şagird şahmatın tədrisinə cəlb olunub. İstifadəyə verilən Uşaq-gənclər şahmat məktəbində isə 30 qrupda 405 şagirdin təlimi ilə 18 məşqçi-müəllim məşğul olur".

Qeyd olunmuşdur ki, həyata keçirilən tədbirlər son illər muxtar respublikada istedadlı şahmatçılar nəslinin yetişməsinə, idmanın bu növü üzrə beynəlxalq yarışların təşkilinə imkan verir. Muxtar respublikada hər il may

Ardı 2-ci səhifədə





ayında ənənəvi olaraq ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalları keçirilir. Bu il də ulu öndərin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Naxçıvan Open-2015” Beynəlxalq Şahmat Festivalı keçiriləcəkdir. Mayın 2-də start veriləcək festivalda 12 ölkədən 350-dən artıq şahmatçı iştirak edəcəkdir. Sevindirici haldır ki, onlardan 80-i muxtar respublikadan olan şahmatçılardır.

Ali Məclisin Sədri həyata keçirilən tədbirlərin Kəngərli rayonunda da şahmatın inkişafına təkan verəcəyini, gələcəkdə rayonda şahmat ustalarının yetişəcəyinə əminliyini bildirmiş, Uşaq-gənclər şahmat məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə rayon şahmatçılarını və məktəbin məşqçi-müəllimlərini təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 4 mərtəbəli binada 1-i elektron lövhəli olmaqla, 10 sinif otağı, kompüter sinfi, müəllimlər və hakimlər otaqları, oyun zalı və bufet vardır. Məktəbdə müasir tədris bazası yaradılmış, sinif otaqları və oyun zalı xüsusi masalar, maqnitli şahmat lövhələri və digər tədris vasitələri ilə təchiz edilmişdir. Bu da rayondaxili müxtəlif yarış və birinciliklərin keçirilməsinə imkan verəcəkdir.

Kompüter sinfində və hakimlər otağında, ümumilikdə, 10 kompüter dəsti quraşdırılmışdır. Kompüterlərə xüsusi şahmat proqramları yüklənmiş və internetə qoşulmuşdur. Gənc şahmatçılar internet üzərindən ölkəmizdə və dünyada keçirilən yarışları birbaşa izləyəcək, şahmatın tədrisi üzrə yeni biliklər əldə edəcək, şahmat ustalarının oyun təcrübələri ilə tanış olacaqlar. Binadakı elektron lövhə də şagirdlərin şahmatın sirlərinə dərindən yiyələnmələrinə, o cümlədən rayonun ümumtəhsil məktəbləri ilə şahmat məktəbi arasında distant dərslərin təşkilinə imkan verəcəkdir.

Bina ilə tanışlıqdan sonra məktəbin məşqçi-müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, müasir şahmat məktəbinin istifadəyə verilməsi rayonda təhsilin inkişafına da öz töhfəsini verəcəkdir. Şahmatla məşğul olan şagirdlər keçirilən dərsləri, xüsusilə də dəqiq elmləri daha yaxşı mənimsəyirlər. Həmçinin şahmat şagirdlərin əqli inkişafına kömək edir ki, bu da onların gələcəkdə informasiya texnologiyalarından istifadə imkanlarının artırılmasında və peşə sahibi olmalarında vacib şərtdir. Müəllimlər bütün bu amilləri nəzərə almalı, şagirdlərin şahmata marağını artırmalı, məşqçi-müəllimlər şahmat məktəbi ilə yanaşı, həm də ümumtəhsil məktəblərində dərslər keçməli, idman növü kimi şahmat hər bir gəncin həyat tərzinə çevrilməlidir.

Müəllim Məhəddin Kazımov minnətdarlıq edərək demişdir ki, muxtar respublikada şahmatın kütləviliyinə nail olunmuşdur. Müasir şahmat məktəblərinin tikilib istifadəyə verilməsi, şahmatçılara və məşqçi-müəllimlərə hərtərəfli qayğı göstərilməsi bu sahənin inkişafına öz töhfəsini verməkdədir. Bu tədbirlərin tərkib hissəsi olaraq Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbi üçün yeni binanın istifadəyə verilməsi rayonda gənclərin idmanın bu növünə olan marağını daha da artıracaqdır.

Müasir memarlıq quruluşuna malik olan binanın ətrafı da abadlaşdırılmış, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Azərbaycanın özü qədər əbədi*

# Milli mədəniyyətimizin hamisi

*Milli mədəniyyət yeraltı, yerüstü sərvətlərdən daha qiymətli xəzinədir. Ulu öndər Heydər Əliyev təkcə zaman-zaman talanan yeraltı, yerüstü xəzinələri xalqımıza qaytarmadı, həm də ideoloji basqıların, yabançı rejimin ağrı-acılarını yaşayan milli mədəniyyətimizi öz sahibinə – xalqımıza, öz yurduna – Vətənimizə qaytardı.*

Dahi şəxsiyyətin həll etdiyi taleyüklü məsələlərin tarixini onun birinci dəfə hakimiyyətə gəldiyi vaxtla əlaqələndirirlər. Bəzi müəlliflərin iftixar hissi ilə yazdıqları kimi, 1967-ci ildə ölkəmizdə Novruz bayramı dahi şəxsiyyət Heydər Əliyevin xeyir-duası, köməyi ilə qeyd edilmişdir. Novruz bayramının keçirilməsi misilsiz milli yaddaş enerjisini oyatmaq demək idi.

Sonralar cəmiyyətdə bir sual çoxlarını maraqlandırırdı: nə yaxşı sovet dönəmində bizim ədəbiyyat, incəsənət xadimlərimizdən heç kəs dissident olmadı? Tarix özü bu sualı cavablandırır: ulu öndər hələ Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi vaxtdan ədəbiyyatın da, milli mədəniyyətin də, onun yaradıcılarının da hamisi idi, böyük uzaqgörənliklə onları qoruyur, hifz edir, məhz bu uzaqgörən siyasətlə mədəniyyət xəzinəmizin zənginləşməsinə öz xilaskar köməyini göstərirdi.

Ulu öndər Azərbaycan tarixində yeni bir era yaratdı. Bu həm də milli mədəniyyətin yeni bir erasıdır. Məhz elə buna görə də xalqımız milli istiqlalın mübarək yollarına zəngin milli mədəniyyətimizlə çıxdı. Milli mədəniyyətin milli dəyər, milli yaddaş olmaqla çoxsaylı, özünəməxsus modellərinin formalaşması da bu zəmin üzərində oldu.

Ötən əsrin 70-80-ci illərində respublikada mənəvi tərbiyənin bütün sahələrinə göstərilən hərtərəfli qayğıdan ehtiramla söz açanlar çox haqlı olaraq deyirlər ki, ulu öndər təkcə ədəbiyyata, mədəniyyətə hamilik etməmişdir, həm də bu mənəviyyat sahələrinin dərin bilicisi, dönməz təəssübkeşi kimi ümumxalq sevgisi qazanmışdır.

Xalqımızın böyük oğlu Heydər Əliyev deyirdi: ***“Xalq bir çox xüsusiyyəti ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən böyüyü mədəniyyətdir”.***

Ulu öndər milli mədəniyyətin tarixi gücünə xüsusi diqqət yetirirdi. Mədəniyyətin bütün sahələrinin – muzeylərin, kitabxanaların, ədəbiyyatın, folklorun, muğamın, kinonun, teatrın, xalçaçılığın, memarlığın, heykəltəraşlığın inkişafı üçün görülən işlər əsl milli intibaha səbəb oldu.

1980-ci ildə qəbul olunan qərarla Muzeylər İdarəsinin, Muzey İşi üzrə Respublika Elmi-Metodik Mərkəzin, Muzeylərin Bədii Tərtibatı Müəssisəsinin, Muzey Sərvətlərinin Elmi Bərpa Mərkəzinin yaradılması bu sahədə kompleks tədbirlər aparılması məqsədilə bağlı idi. Həmin dövrdə Azərbaycanın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaratmaq haqqında qərar qəbul edildi. Tarix-diyarşünaslıq muzeyləri milli-mənəvi yaddaşın hifz olunmasında mühüm addım oldu.

Görkəmli dövlət xadimi Heydər Əliyevin milli mədəniyyətə qoruyucu, yaradıcı münasibətinin, bu sahəyə tükənməz qayğı və diqqətinin əsas mənbəyi tükənməz Vətən sevgisi, hüdudsuz xalq məhəbbəti idi. Aparılan müdrik siyasət nəticəsində milli mədəniyyətimiz beynəlxalq miqyasda tanındı, dünyanın diqqət mərkəzinə çıxarıldı.

Xalqımızın zaman-zaman yaratdığı milli mədəniyyətin qorunub saxlanılması, zənginləşdirilməsi, gələcək nəsillərə çatdırılması sahəsində həyata keçirilən tədbirlər bütün nəsillərin ehtiram və minnətdarlıqla qarşıladığı tarixi xidmətdir.

Milli intibah tarixdə həm də qızıl dövr adlanır. İftixarla deyə bilərik ki, bu gün çiçəklənmə mərhələsini yaşayan mədəniyyətimizin qızıl dövrü ötən əsrin 70-ci illərindən başlayıb.

Belə bir fakta diqqət yetirək. Milli kino tariximizdə indiyədək 350-dən çox film çəkilib. Onların yarısı ulu öndərin hakimiyyəti illərində yaradılıb və bu filmlərin böyük bir qismi əsl sənət hadisəsinə çevrilib.

Respublikamızda milli teatr, milli kino, milli musiqi, Ana dili günlərinin keçirilməsi ilə bağlı sərəncamların imzalanması mədəniyyətimizə sonsuz məhəbbətin parlaq nümunəsidir.

Fundamental Azərbaycançılıq fəaliyyəti ilə Vətənimizi, xalqımızı bütün dünyada məşhurlaşdıran ulu öndər deyirdi: ***“Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarının xidmətlərini xüsusi qeyd edirəm”.***

Ümummilli liderin müəyyənləşdirdiyi humanitar siyasətdə bütün bunlara xüsusi həssaslıq, diqqət vardır. Ədəbiyyatın, mədəniyyətin təbliği üçün həyata keçirilən möhtəşəm tədbirlər bu siyasətin tərkib hissəsi idi. Yazıçı və şairlərin, mədəniyyət xadimlərinin yubileyləri ədəbiyyatın və mədəniyyətin bayramı səviyyəsinə qaldırıldı. Bütün bunlar xalq adına, milli mədəniyyət adına olan hüdudsuz sevginin göstəriciləri olmaqla yanaşı, milli mədəniyyətə yeni təfəkkürlə yanaşmanın yeni, analoqu olmayan modelləri idi. Bu yubileylər, yığıncaqlar təkcə xalqın öz sənət xadimlərinə olan sevgisinin parlaq ifadəsi üçün deyildi, bu qüdrətli xalqın zaman-zaman yaratdığı mədəniyyət xəzinəsinin dünyanın hər yerində tanıdılması üçün idi.

Mədəniyyət, ədəbiyyat korifeylərinin Bakıda, eləcə də respublikanın bütün şəhərlərində əzəmətli heykəllərinin, abidələrinin ucaldılması dahi rəhbərin milli mədəniyyətimizə sonsuz sevgisinin, doğma xalqa ehtiram və məhəbbətinin ifadəsidir.

Sənət, ədəbiyyat tariximizdə “60-cı illər nəsli” ifadəsi tez-tez işlədilir. Bu nəsil çox şərəfli bir missiyanı yerinə yetirdi. Onların əsas yaradıcılıq nailiyyətləri ötən əsrin 70-80-ci illərinə təsadüf etdi. Onlar məhz ulu öndərin formalaşdırdığı çox münbit, məhsuldar mühitin yetirmələri idi. Dahi rəhbər Heydər Əliyev onlara hamilik etdi, sovet ideologiyasının basqılarından qorudu, milli mədəniyyətə vətəndaşlıq yanğısıyla xidmət etmələri üçün hərtərəfli qayğı göstərdi.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi bütün zamanlarda milli mənəviyyatın canlı abidələri yaradıldı, bu abidələrlə xalq öz milli-tarixi yaddaşına tamamilə yiyələndi, Vətənin həqiqi sahibinə, mənəvi sərvətlərin həqiqi varisinə çevrildi.

Ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənlikdə yürütdüyü siyasət nəticəsində, əslində, 70-ci illərdən başlayaraq Kremlin gözü qarşısında Azərbaycan istiqlalının, Azərbaycançılıq məfkurəsinin dayaq nöqtələri formalaşdırıldı. Milli müstəqilliyimizə gedən yollar məhz bu dayaq nöqtələrindən başlayırdı.

Bu gün ədəbiyyat, sənət xadimləri bütün bunlardan hədsiz-hüdudsuz ehtiramla, minnətdarlıq duyğusu ilə söz açır, qürurla deyirlər ki, ulu öndər Heydər Əliyev sənət adamlarının, yazıçı və şairlərin ən böyük dostu, hamisidir.

İkinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra da görkəmli dövlət xadimi Heydər Əliyevin böyük sənət hamisi kimi ardıcıl, davamlı şəkildə yürütdüyü siyasət öz parlaq töhfələrini verdi.

Ulu öndər 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə gərginliyə, çətinliklərə, bütün Azərbaycanın ağrı-acılarını öz əzəmətli çiyinlərində daşımasına baxmayaraq, sənət adamları ilə müntəzəm görüşür, çox ciddi vəzifələri qətiyyətlə həyata keçirirdi. Naxçıvan teatrının fəaliyyətinə həmişə yüksək qiymət verən ulu öndər yazıçılarla, şairlərlə, teatr xadimləri ilə tez-tez görüşür, hər kəsin yaradıcılığına yüksək sənət bilicisi kimi qiymət verir, yaşadığımız günlərin müxtəlif sənət sahələrinin qarşısına qoyduğu vəzifələrdən söz açırdı.

1992-ci ilin oktyabrında Hüseyn Cavidin anadan olmasının 110 illiyi ilə bağlı bayram şənlikləri sənətkara, sənətə verilən qiymətin təntənəsinə çevrildi. Ulu öndərə hədsiz minnətdarlıq duyğuları ilə hər kəs belə düşünürdü: yalnız ensiklopedik zəka, bənzərsiz intellekt, mənəvi güc və qüdrət sahibi olan rəhbərin himayəsi ilə tədbirlər belə möhtəşəmlik qazana, yaddaşlara əbədilik yazıla bilər.

Cavid haqqında, onun yaradıcılığı barədə çox yazılıb, yaddaqalan çox fikirlər deyilib. Ancaq həmin tədbirdə dahi rəhbərin söylədiyi fikirlər cild-cild kitablardan da qiymətlidir.

Son illər naxçıvanlı yazıçıların əsərlərində, teatrımızda hazırlanan tamaşalarda müdriklər müdriki, millət atası Heydər Əliyevin müqəddəs obrazı canlandırılıb. Xalqın da, sənətkarların da dahi şəxsiyyətə, Azərbaycanın yeni tarixinin yaradıcısına məhəbbət və ehtiramının təntənəsi olan bu əsərlərlə, fikrimizcə, sənətin qızıl dövrü başlayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“...Biz xoşbəxt millətik. Ona görə ki, təhsilimizə, mədəniyyətimizə, onun inkişafına diqqət və qayğı xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlənib hazırlanmış inkişaf strategiyası, möhkəm bünövrə, sağlam və sarsılmaz təməl üzərində qoyulmuşdur. Xoşbəxtik ki, bu gün həmin strategiya uğurla davam etdirilir”.***

Bəli, ulu öndərin yaratdığı ənənələr uğurla davam etdirilir, mədəniyyət sahəsində də dünyanı heyran qoyan böyük layihələr həyata keçirilir.

Ümummilli liderin müəyyənləşdirdiyi strategiyaya sadiq olan ölkə Prezidenti cənab İlham Əliyevə Azərbaycan mədəniyyəti minnətdardır. Məhz onun qayğısı, himayəsi ilə ədəbiyyatımız və mədəniyyətimiz tarix üçün çox qısa olan bir dövrdə əsrlərə bərabər inkişaf yolu keçib.

Elm, mədəniyyət mərkəzlərindən olan Naxçıvanda qazanılan nailiyyətlər ulu öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsinin bariz ifadəsi, bu yola sədaqətin parlaq nümunəsidir. Mədəniyyət müəssisələrinin sıraları ən müasir memarlıq üslubu ilə seçilən yaraşıqlı binalarla zənginləşir.

*Bəli, ulu öndərin milli-mədəni intibah amalı gücümüz, qüdrətimiz, parlaq sabahlarımızdır.*

**Yasəmən RAMAZANOVA**
***Azərbaycan Respublikasının Xalq artisti***

*Mayın 1-də Culfa rayonunda “Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr” mövzusunda seminar-müşavirə keçirilib.*

## “Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr” mövzusunda seminar-müşavirə



Seminar-müşavirəni giriş sözü ilə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq muxtar respublikada, eləcə də Culfa rayonunda bələdiyyələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasının vacibliyindən, bələdiyyələrin iqtisadi resurslardan istifadə keyfiyyətinin yüksəldilməsinin günün tələbi olmasından, rayonda bələdiyyələrə göstərilən dövlət qayğısından, yaradılan hərtərəfli şəraitdən, bu şəraitin müqabilində bələdiyyələrin fəaliyyətində dönüş yaradılmasının vacibliyindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi istiqamətində işlər mütəmadi davam etdirilir. Belə ki, son illər Culfa rayonu üzrə də seminar-müşavirələrin keçirilməsi mütəmadi hal alıb. Seminar-müşavirələrin keçirilməsində məqsəd bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasından ibarət olub.

Bildirilib ki, nazirlik tərəfindən keçirilən bu qədər maarifləndirici tədbirlərə, verilmiş tövsiyə və təkliflərə baxmayaraq, hələ də rayon üzrə bələdiyyələrin fəaliyyətində nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Verilmiş tövsiyə və tapşırıqlardan sonra bələdiyyələrdə görülən işlərlə tanış olmaq üçün təkrar olaraq bələdiyyələrdə araşdırmalar aparılıb. Araşdırmalar zamanı əməkdaşlarımız tərəfindən başlanan işlərin olduğu kimi hərəkətsiz qaldığı və heç bir işin davam etdirilmədiyi, nöqsanların aradan qaldırılmadığı müşahidə olunub. “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikası Qanununun altıncı maddəsinə əsasən, hər bir bələdiyyə qəbul etdiyi aktın surətini inzibati nəzarət qaydasında baxılması üçün 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Bu sahədə muxtar respublika ərazisindəki bələdiyyələrin əksəriyyəti qanunvericiliyin tələblərini pozur. Bütün bunların nəticəsidir ki, son 5 ildə muxtar respublika üzrə 42 bələdiyyə sədri haqqında inzibati tənbeh tədbiri görülüb. Bunlardan 4-ü Culfa rayonunun ərazisindəki bələdiyyələr barədədir. Bundan sonra da belə hallara yol verən bələdiyyələr haqqında tədbirlərin görülməsi davam etdiriləcək.

Suliddin Əliyev deyib ki, bu il ölkəmizdə “Kənd təsərrüfatı ili” elan olunub. Bu sahənin inkişafı ilə bağlı bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür. Xüsusən də fiziki və hüquqi şəxslər tərəfindən bələdiyyə mülkiyyətində olan torpaq sahələrində icarə müqavilələri bağlamaqla kənd təsərrüfatı məhsulları istehsalına diqqət daha da artırılmalı, muxtar respublikada kənd təsərrüfatı məhsulları bolluğunun yaradılmasında bələdiyyələrin rolu gücləndirilməlidir. Muxtar respublika rəhbərinin bu sahəyə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, aparılan hərtərəfli abadlıq və quruculuq işləri çərçivəsində muxtar respublika bələdiyyələri müasir iş şəraiti ilə təmin ediliblər. Ötən il bələdiyyələrin sırasından işində fərqlənən, seçilən 8 nəfər bələdiyyə sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunub. Göründüyü kimi, muxtar respublika rəhbəri bütün sahələr kimi, bələdiyyə sahəsinin də inkişafını diqqətdə saxlayır. Bu da, öz növbəsində, inkişafa stimul olmaqla bu sahənin uğurlarını artırmalıdır.

Tədbirə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yekun vuraraq bildirib ki, rayonda bələdiyyələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması üçün hər cür imkanlar var və son illərdə bələdiyyələrin fəaliyyətində canlanma müşahidə olunmaqdadır. Əminliklə demək olar ki, bələdiyyələr Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi, Culfa Rayon İcra Hakimiyyətinin müvafiq şöbələri ilə əlaqələri və əməkdaşlığı gücləndirərək seminar-müşavirədə qeyd olunan nöqsanların qısa zamanda aradan qaldırılmasına səy göstərəcəklər.

**Səbuhi HÜSEYNOV**



*Şəhərləşən kəndlərimiz*

# Yaycı

***Şəhər mədəniyyəti insan cəmiyyətinin ən böyük nailiyyətlərindən biridir. Bəşəriyyət tarixində ilk insan məskənlərinin yaranması və onların genişlənərək şəhərlərə çevrilməsi izləri ilk mədəni intibah elementləri kimi dövrümüzə qədər gəlib çatmışdır. Beşminillik şəhər mədəniyyəti tarixi olan qədim Naxçıvanın əhalisinin sayı 5 min nəfərdən yuxarı iri kəndtipli yaşayış məntəqələrindən biri – Culfa rayonunun Yaycı kəndi də bu mənada “Şəhərləşən kəndlərimiz” rubrikasında növbəti mövzumuzdur. Məqsəd muxtar respublikamızda gedən intibah proseslərinin bu qədim yaşayış məntəqəsində, onun əhalisinin həyat tərzində yaratdığı keyfiyyət dəyişikliyinə şahid olmaq, muxtar respublikamızı daha yaxından tanımaq, onu tanıtmaqdır.***



Yeddi min nəfərdən artıq əhalisi olan Yaycı kəndi Culfa rayonunun ikinci böyük yaşayış məntəqəsidir. İqtisadi və mədəni inkişaf üçün ən əsas şərt olan belə geniş əhali ehtiyatına malik Yaycının yerləşmə mövqeyi də olduqca əlverişlidir. Kənd, demək olar ki, Naxçıvan-Ordubad magistral yolunun üzərində, Naxçıvan şəhərindən 50 kilometr, Ordubad şəhərindən 30 kilometr məsafədə yerləşir. Kəndin 7926 hektar ərazisi vardır. Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən aldığımız məlumata əsasən, burada 833 hektarı sulu olmaqla, 1377 hektar əkinəyararlı torpaq sahəsi vardır. Burdakı torpaqlara uyğunlaşdırılmış və yüksək keyfiyyəti ilə seçilən Yaycı soğanı muxtar respublikamızın hər yerində özünə alıcı tapır. Bundan əlavə, kəndin 428 hektara çatan taxıl əkinləri və bostan sahələri onu göstərir ki, bu sahələr yaycılıların əsas məşğuliyyətlərindəndir. Heyvandarlıq və arıçılıqda da bu kənddə yaxşı təsərrüfatçılıq ənənələri vardır. Hazırda kənd camaatının təsərrüfatlarında 2 mindən artıq iribuynuzlu, 15 mindən artıq xırdabuynuzlu heyvan, 1200-ə yaxın arı ailəsi vardır. Ağsaqqalların dediyinə görə, “Yaycı” kəlməsi də “Yayçı”, yəni yayda Araz kənarına gəlib təsərrüfatla məşğul olan insanlara verilən adla əlaqələndirilir.

Kəndin tarixinə gəldikdə, Yaycıda hələ IX əsrdən məlum olan maddi-mədəniyyət nümunələri olduğu bilinməkdədir. Lakin, təxminən, yüz il əvvəl, 1918-ci ildə mənfur ermənilərin Yaycıda törətdikləri qanlı soyqırımı Azərbaycan xalqının yaddaşından heç zaman silinməyəcəkdir. Həmin dövrdə ermənilər Yaycıda qadın, uşaq, qoca demədən 2500 Azərbaycan türkünü qətlə yetirmişdilər. Kəndin mərkəzində həmin soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə buraya gələn qonaqların diqqətini ilk olaraq cəlb edir.

Araz üstündəki bu gözəl yurd yerimiz inkişaf edib gözəlləşir. Kənd böyüdükcə ona yaxın olan Culfa rayonunun Dizə, Ordubad rayonunun Sabirkənd, Azad yaşayış məntəqələri də peyk məntəqələr kimi, bir növ, Yaycıya yaxınlaşır. Yaycı kəndinin inkişafına göstərilən dövlət qayğısı, əhalinin sosial-mədəni şəraitinin yaxşılaşdırılması üçün görülmüş irimiqyaslı işlər burada şəhər həyatı tərzinin genişlənməsinə şərait yaratmışdır. Yaycılılar lap əvvəllərdən əməksevər, qoçaq insanlar olmuşlar. Kənd sakinləri ilə söhbətlərdən məlum oldu ki, onlar hələ keçmiş sovet dönəmində buradakı 500 hektardan artıq üzüm bağlarından hər il bol məhsul əldə etmiş, illik gücü 10 min ton üzüm emalı olan şərab istehsalı müəssisəsində onu emal edərək kənddən keçən dəmir yolu ilə müxtəlif şəhərlərə göndərmişlər. Müasir dövrdə isə kəndin abadlaşmasında hələ 2007-ci ildə burada aparılmış quruculuq işlərinin mühüm əhəmiyyəti olmuşdur. Hazırda Yaycıda müasir üslubda inşa olunmuş kənd mərkəzinin, iki tam orta məktəbin, bir peşə məktəbinin, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Culfa bazasının binaları ona kənddən daha çox şəhər görkəmi verir. Yaycıda olarkən bildirdilər ki, burada kənd camaatına məxsus 20-dən artıq iki və üçmərtəbəli müasir villatipli ev vardır. Bunların sayı hər il artmaqdadır. Bundan əlavə, 3500 metr kənddaxili yolun asfaltlanması buranın sakinlərinin rahatlığından əlavə, kəndə gələn qonaqlarda da xoş təəssürat yaradır. Əgər qonaqlar Yaycı yolu üzərindəki “Daşarx” restoranında dayanıb istirahət edərsə, bu təəssürat daha da zəngin olacaqdır.

Müasir Yaycı kəndi özünün sosial həyatı, məşğulluğu, gənclərin idmana meyli, mənalı asudə vaxt keçirməsi ilə seçilir. Araz çayı boyunca geniş bir əraziyə yayılmış bu kəndin mikroavtobuslarla hər saatda bir dəfə rayon mərkəzi, gündə üç dəfə olmaqla isə Naxçıvan şəhəri ilə nəqliyyat əlaqələri vardır. Əlbəttə, bu, nisbətən yaxşı göstərici olsa da 7 min nəfərdən artıq əhalisi olan bir kənd üçün bundan daha yaxşısını arzu etmək olardı. Düzdür, kənddə əhalinin 700-dən artıq minik avtomobilinin olduğunu desələr də, hər halda, ərazidə yaxşı təşkil olunmuş ictimai nəqliyyat onun mühüm sosial göstəricisi kimi hər yerdə qəbul edilmişdir.

Yaycıdakı istehsal sahələri kənd əhalisinin rayon mərkəzinə getmədən tələbatlarının ödənilməsinə xidmət edir. Kənddə fəaliyyət göstərən 2 plastik qapı-pəncərə, 4 kərpic istehsalı, 5 çörəkbişirmə, 7 dülgər, 2 mebel istehsalı sexləri, 5 avtomobil təmiri məntəqəsi həm də kənd sakinlərinin məşğulluğunda mühüm rol oynayır. Kənddəki mədəniyyət evinin, müasir şadlıq sarayının kənd əhalisinin sosial ehtiyaclarının ödənilməsində mühüm əhəmiyyəti vardır. Bundan əlavə, kənddə quraşdırılmış 1 bankomat, 3 POS-terminal insanlara elektron xidmətlər göstərilməsi üçün çox vacibdir.



Müasir Yaycı ilə, onun yaşlısı, gənci ilə tanış olduqda qədim, milli adətlərimizin yaşadıldığı, eyni zamanda qaynar şəhər həyatına xas olan işgüzarlıq nəzərdən qaçmır. Yaycıda yaşı 90-dan yuxarı olan uzunömürlü insanlar vardır. Bu insanlar isə kəndin canlı tarixi kimi onun gənclərinə örnəkdirlər. Yaycı isə öz yetirmələri ilə həmişə öyünür. Kəndin yetirmələri arasında məşhur siyasətçilər, hərbçilər vardır. Sovet dövründə uzun müddət Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti olmuş akademik Həsən Abdullayev, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri vəzifəsində çalışmış Məmməd Əsgərov bu kəndin yetirmələridir. 10 nəfərdən artıq elmlər doktoru, 30 nəfərdən çox fəlsəfə doktoru Yaycı məktəblərinin fəxridir. Bu təhsil ənənələri indi də davam etdirilir. Belə ki, 2014-cü ildə Yaycıdakı məktəblərdən məzun olmuş 74 nəfərdən 15-i ali məktəblərə qəbul olunmuş, 2 nəfər 500-700 bal arası, 1 nəfər isə 650 baldan yuxarı nəticə göstərərək Prezident təqaüdünə layiq görülmüşdür. Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş 6 nəfər yaycılı şəhidin və 1941-1945-ci illər müharibəsində həlak olmuş yaycılıların qəhrəmanlığı isə burada böyüyən gənclər üçün Vətən, yurd sevgisi dastanıdır. Yaycılıların xoş güzəranı isə bu sevginin heç bitmədən davam edəcəyini deyir.

**Əli CABBAROV**

## Daha bir kənddə kompleks quruculuq işləri aparılır

Babək rayonunun Xal-xal kəndində ötən ayın əvvəllərindən kənd tam orta məktəbinin və kənd mərkəzinin inşasına başlanılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin inşaatçıları tərəfindən tikintisi aparılan binaların zirzəmi hissələrində qəlib-beton işləri başa çatdırılıb.

Adıçəkilən idarənin mühəndisi Rizvan Abbasovun bildirdiyinə görə, məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq, binada hər biri 16 şagird yerlik olmaqla, 12 sinif otağı, 2 laboratoriya, 1 hərbi kabinə, kitabxana, idman zalı, şahmat sinfi, 1 elektron lövhəli sinif, 1 kompüter otağı yaradılacaq. Kənd mərkəzində isə icra nümayəndəliyi, bələdiyyə, poçt, ATS, baytarlıq məntəqəsi, kitabxana yerləşdiriləcək, iclas zalı yaradılacaq. Kənddə xidmət mərkəzinin inşasına başlanması üçün də hazırlıq işləri görülür.

**Xəbərlər şöbəsi**

Qələbə – 70

# Naxçıvanlı üç Sovet İttifaqı Qəhrəmanından biri – Abbas Quliyev



***O ağır illərdə 30 min nəfərdən çox naxçıvanlı gənc oğlan və qız da ordu sıralarına yollanaraq 1941-1945-ci illər müharibəsinin iştirakçısı olub. Faşist işğalçıları üzərində qələbənin təmin edilməsində həmyerlilərimizin də payı az deyil. Müharibənin od-alovları içərisində onlar da Barents dənizindən tutmuş Qara dənizədək bütün müharibə zonalarında vuruşaraq hünər və igidliklər göstəriblər; Stalinqrad, Odessa, Sevastopol, Latviya, Litva, Moldovanın düşməndən azad edilməsində yüksək döyüş rəşadəti nümayiş etdiriblər. Belə döyüşçülər sırasında şücaəti ilə qəhrəmanlıq zirvəsinə yüksələn həmyerlilərimizdən biri də müharibənin dəhşətləri içərisindən sağ-salamat çıxıb doğma yurduna qəhrəman kimi dönən Abbas Quliyevdir.***

Bu gün muxtar respublikanın muzeylərində, o cümlədən Naxçıvan Dövlət Tarix Muzeyində, Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyində Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyevə məxsus çoxlu sayda foto, sənəd və şəxsi əşyalar vardır. Son illər bu həmyerlimizlə bağlı “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə də maraqlı materiallar daxil olub və həmin mənbələr araşdırılaraq öyrənilib.

Kəngərli tayfasından – I Kalbalı xanın oğul varislərindən olan Abbas Şahbaz xan oğlu Quliyev 15 sentyabr 1916-cı ildə Babək rayonunun Şəkərabad kəndində anadan olub. Bir yaşında olarkən atasını itirən kiçik Abbası anası böyüdüb. O, Naxçıvan şəhərində yeddiillik təhsil aldıqdan sonra Bakıdakı pedaqoji məktəbə daxil olub. Təhsilini başa vurduqdan sonra Naxçıvana qayıdıb, Dövlət Musiqili Dram Teatrında işləməyə başlayıb. Müharibə başlayan zaman Abbas Quliyev də yüzlərlə igid oğlumuz kimi cəbhəyə yollanıb. Qərbi Dneprdən Visla çayına qədər döyüş yolu keçən Abbas Quliyev 1942-ci ildə Sumi (Ukrayna) topçuluq məktəbini bitirib və topçu komandiri kimi döyüş yolunu davam etdirib.

Faşistlər 1942-ci ilin axırlarından etibarən sovet ordusunun başladığı zəfərli hücumu Dnepr sahillərində dayandırmaq fikrində idilər. Lakin qəhrəman döyüşçülərin qarşısıalınmaz hücumu nəticəsində düşmənlər Dneprin sahillərindən qovuldular. Bu döyüşdə yüksək şücaəti ilə fərqlənənlər sırasında Abbas Quliyev də var idi. Hücum zamanı onun komandirlik etdiyi topçu dəstəsi düşmənə sarsıdıcı zərbələr endirərək qəhrəmanlıq nümayiş etdirib.

Cəsur komandir Poltava torpağında misilsiz döyüş rəşadəti, dönməz iradəsi və hərbi bacarığı ilə şöhrət qazanıb. 1944-cü ilin avqustunda o, vacib bir hərbi tapşırığı yerinə yetirir. Gecə ikən Visla çayının sağ sahilinə keçərək mövqe tutur. Və üç gün fasilələrlə gedən qeyri-bərabər döyüşdə sovet əsgərlərinin çayı maneəsiz keçib, düşməni darmadağın etmələri üçün əlverişli şərait yaradır. O, Poltava və Xarkov ətrafında gedən döyüşlərdə də igidlik və qəhrəmanlıq nümunəsi göstərir. Bütün bunlara görə Abbas Quliyev I dərəcəli “Vətən müharibəsi”, “Aleksandr Nevski”, “Qızıl Ulduz” və “Qırmızı Bayraq” orden və medalları ilə təltif edilir.

1945-ci ildə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Abbas Quliyev “Sovet İttifaqı Qəhrəmanı” kimi yüksək ada layiq görülüb. M.İ.Kalinin Abbas Quliyevə Lenin ordeni və Sovet İttifaqı Qəhrəmanının “Qırmızı Ulduz”unu təqdim edərkən onun teatr işçisi olduğunu bilib etiraf edir ki, ilk dəfədir, belə bir peşə sahibinin bu cür yüksək ada layiq görüldüyünə şahidlik edir. Həmin günlərdə “İzvestiya” qəzeti Abbas Quliyevə həsr etdiyi məqalədə yazırdı: “Naxçıvan teatrı Abbas Quliyevin şəxsində müvəqqəti də olsa, teatr xadimini itiribsə, sovet ordusu onun simasında gözəl, bacarıqlı, cəsur zabit qazanıb”.

Beləliklə, odlu-alovlu müharibə qələbə ilə başa çatır. 1945-ci ildə müharibə əlili kimi ordudan tərxis olunan Abbas Quliyev doğma Naxçıvana qayıdıb. Az sonra Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsinə irəli çəkilib. Sonra bir müddət Naxçıvan Rayon İcraiyyə Komitəsi sədrinin müavini vəzifəsində çalışıb. Onu buradan Azərbaycan KP MK yanında ikiillik partiya məktəbinə oxumağa göndərirlər. 1953-cü ildə həmin məktəbi bitirdikdən sonra Abbas Quliyev Naxçıvan Şəhər Zəhmətkeş Deputatlar Soveti İcraiyyə Komitəsinin sədri işləyib. İşlədiyi bütün vəzifələrdə peşəkarlığı, təşkilatçılığı ilə fərqlənən Abbas Quliyevə Naxçıvan əhalisi yüksək etimad göstərərək onu 1955-ci ildə IV çağırış Naxçıvan MSSR Ali Sovetinə deputat seçib. 1962-ci il iyunun 12-də isə o, Azərbaycan SSR Ali Soveti tərəfindən Ali Məhkəməyə xalq icraçısı təyin edilib.

Naxçıvan torpağının qəhrəman oğlu Abbas Quliyev müharibə illərində öz əsgəri borcunu şərəflə yerinə yetirdiyi kimi, dinc dövrlərdə də işlədiyi bütün vəzifələrdə Vətəninə vicdanla xidmət edib. O, ömrünün sonuna qədər Vətən üçün çalışıb, Naxçıvanın inkişafı üçün əlindən gələni əsirgəməyib. Mərd və polad iradəsi ilə düşmən önündə rəşadət nümunəsi göstərən Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyevin ömür yolu, fəaliyyəti gənc nəslə əsl örnəkdir.

**Nəzakət ƏSƏDOVA**
***“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru***

***“Milli dəyərlərə bağlılıq vətənpərvərlik hislərini gücləndirir, insanın əsl vətəndaş kimi tərbiyəsində birbaşa rol oynayır. Vətənpərvərlik insanın öz Vətəninə sevgi və sədaqətindən, onun tarixi, milli və mədəni dəyərləri üçün qürur hissi keçirməkdən və müdafiəsinə hər an hazır olmaqdan ibarətdir. Milli dəyərlərimiz insana kiçik yaşlarından aşılanmalıdır”.***

# “Milli dəyərlər və uşaqlar” mövzusunda seminarlar keçirilir

Bu fikirlər Babək qəsəbə tam orta məktəbində “Milli dəyərlər və uşaqlar” mövzusunda keçirilən seminarda səsləndirilib.

Şagirdlərlə yanaşı, məktəb psixoloqlarının, uşaq birliyi rəhbərlərinin və valideynlərin iştirak etdiyi tədbiri Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Eltun Həziyev açaraq belə seminarların keçirilməsinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, məktəb insanın sonrakı həyat tərzinin, düşüncəsinin, xarakterinin formalaşmasında önəmli rol oynayır. Bu mənada milli dəyərlərə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi günümüzdə məktəbin qarşısında duran əsas vəzifələrdən biridir. Buna görə də məktəblərdə şagirdlərin geniş biliklərə sahib olmaları ilə bərabər, onların milli dəyərlərə bağlı, vətənpərvər kimi formalaşmalarına da ciddi yanaşılmalıdır.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik idarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Yulət Əliyev və Təhsil Nazirliyinin əməkdaşı Ayşən Əsgərova çıxış edərək milli dəyərlərimizin uşaqlara aşılanması, uşaqların zərərli vərdişlərdən uzaqlaşdırılması yollarından, asudə vaxtlarının səmərəli təşkilindən, erkən nikah hallarının fəsadlarından, informasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə qaydalarından ətraflı bəhs ediblər.

Məktəbin direktoru Əli Hacıyev seminarın təşkilinə görə minnətdarlığını bildirib.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb, onlara Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış “Milli dəyərlərimiz deyəndə nələri başa düşürük?”, “Erkən nikah – ailə faciəsinin təməli” adlı broşürlər, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun və BMT-nin “Uşaq hüquqlarına dair Konvensiya”sının mətnləri paylanılıb.

Qeyd edək ki, cari ildə muxtar respublikanın ümumtəhsil məktəblərində 6 dəfə bu mövzuda seminar keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ordubad rayonunda qadın təhsil işçilərinin onkoloji müayinələri davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, təhsil müəssisələrində çalışan qadınlar arasında süd vəzi xərçəngönü xəstəliklərinin aşkar edilməsi üçün kütləvi profilaktik tibbi müayinələr davam etdirilir.***

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkim-onkoloqları tərəfindən son iki ildə Naxçıvan şəhəri, Şərur, Sədərək, Şahbuz, Babək, Kəngərli və Culfa rayonları üzrə 2000-dən çox qadın təhsil işçisinin süd vəzinin profilaktik müayinəsi həyata keçirilib. Müayinələr zamanı 85 qadının süd vəzində fibroadenoma, mastopatiya və digər patologiyalar aşkar edilərək onlar Onkoloji Mərkəzə dəvət olunub və mammoqrafiya müayinəsindən keçirilərək diaqnozları dəqiqləşdirilib, müvafiq müalicələr təyin edilib.

Yaz mövsümünün profilaktik tibbi müayinələrinə isə Ordubad rayonundan start verilib. Dəstə kənd tam orta məktəbində keçirilən tədbirdə Onkoloji Mərkəzin baş həkimi Vladi Cabbarov bildirib ki, süd vəzi xərçənginin yaranma səbəbi elmə məlum olmasa da, yaş, irsiyyət faktorları, müxtəlif hormonal pozuntular, piylənmə, zərərli alışqanlıqlar və digər amilləri səbəb kimi qəbul etmək olar. Lakin bu fəsadların xəstəliyin yaranması və inkişafı üçün təhlükəli hesab edilsə də, insanlarda təşviş yaratmamalıdır. Mühüm olan xəstəliyin vaxtında aşkarlanmasıdır. 35 yaşdan sonra hər bir qadın ildə bir dəfə həkim müayinəsindən keçsə, problem erkən mərhələdə müəyyənləşdirilsə, xəstəliklə mübarizə asanlaşar və o, müvəffəqiyyətlə müalicə olunar.

Onkoloji Mərkəzin həkimi Sevda Rüstəmova süd vəzi xərçəngi və onu aşkarlamaq üçün qadının özü-özünün müayinə texnikasından danışıb. Bildirilib ki, ölkəmizdə son illər onkoloji xidmətin müasir standartlara uyğunlaşdırılması və maarifləndirmə işinin genişləndirilməsi nəticəsində xəstəliyin əlamətləri daha erkən aşkarlanır və uğurlu müalicə üsullarından istifadə edilir.

Sonra məktəbdə çalışan qadınlar keçirilən müayinə aksiyasında iştirak ediblər. Belə müayinələr digər ümumtəhsil müəssisələrində də aparılıb. Ordubad şəhərində 151 qadın təhsil işçisi müayinədən keçib, 8 nəfərdə mastopatiya və digər patologiyalar aşkar edilərək Onkoloji Mərkəzə dəvət olunub. Dəstə, Kotam, Əndəmic, Əylis, Nüsnüs kənd tam orta məktəblərində 278 qadın təhsil işçisi müayinələrlə əhatə olunub. 14 nəfər dispanser qeydiyyatına alınıb.

Rayonun qəsəbə və kənd məktəblərində qadın təhsil heyətinin profilaktik tibbi müayinələrini ilin sonuna qədər başa çatdırmaq nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Müharibə veteranları ilə görüş





***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında 1941-1945-ci illər müharibəsi veteranları ilə görüş keçirilib.***

Tədbiri giriş sözü ilə Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov açıb.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsində azərbaycanlılar əvvəldən sonadək fəal iştirak ediblər. Həmin illərdə ölkəmizdən 600 mindən çox insan səfərbər edilərək cəbhəyə göndərilib. Naxçıvan Muxtar Respublikasından da 30 min nəfərə yaxın oğul və qızlarımız cəbhəyə yollanıb, azərbaycanlılardan ibarət 77-ci “Simferopol”, 233-cü “Belqrad”, 416-cı “Taqanroq” və 402-ci “Azərbaycan” diviziyalarının tərkibində vuruşaraq işğal olunmuş ərazilərin azad olunmasında yaxından iştirak ediblər. 416-cı diviziya Şimali Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçərək düşmənin 23 minə yaxın canlı qüvvəsini məhv edib, 5474 əsgər və zabitini əsir götürüb. Diviziyanın əsgərləri Berlində Brandenburq darvazasına qələbə bayrağını sancıblar.

Vurğulanıb ki, misilsiz qəhrəmanlıq göstərdiklərinə görə 128 soydaşımız, o cümlədən muxtar respublikamızdan Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov ən yüksək mükafata – “Sovet İttifaqı Qəhrəmanı” adına, Rəhim Rəhimov “Şöhrət” ordeninin hər üç dərəcəsinə layiq görülüblər. Tarixi qələbənin qazanılmasında iştirak etmiş naxçıvanlıların keçdiyi döyüş yolu, onların qəhrəmanlığı dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, şuranın sədr müavini Heydər Heydərov, şuranın Naxçıvan şəhər təşkilatının sədri Firudin Süleymanov çıxış edərək döyüş xatirələrindən bəhs edib, dövlətimiz tərəfindən onlara göstərilən diqqət və qayğıdan danışıblar.

Sonra veteranlara hədiyyələr təqdim edilib.

Sonda tədbir iştirakçıları “Gizli tarix: Reyxin Bakı planları” adlı filmə baxıblar.

**Xəbərlər şöbəsi**


## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Kəngərli rayonunun Yurdçu icmasının tender komissiyası icma qrupunun hazırladığı “Elektrik sistemlərinin bərpası və genişləndirilməsi” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki və insan resursları barədə məlumat*
* *Son illərdə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması*
* *Maliyyə vəziyyəti barədə arayış*

Qeyd olunmuş sənədlər toplusunu 12 may 2015-ci il, saat 18⁰⁰-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Kəngərli rayonu, Yurdçu kəndi, tender komissiyası icma qrupunun sədri: İlham Abbasov***
***Əlaqə telefonu: (070) 260-68-79***



ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 354